# BAKI DÖVLƏT UNİVERSİTETİNİN
# MEDİA PROBLEMLƏRİ
# JURNALI



BAKU STATE UNIVERSITY
PROBLEMS OF MEDIA

1(2)
2026

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN
# MEDİA PROBLEMLƏRİ JURNALI

# JOURNAL OF PROBLEMS OF MEDIA
## OF BAKU STATE UNIVERSITY

**№1 (2), 2026**

**Bakı – 2026**

# QLOBALLAŞAN DÜNYADA İNFORMASİYA

## DÜNYA MEDİASINDA QƏRƏZLİ İNFORMASİYA SİYASƏTİ: SƏBƏBLƏR VƏ TƏSİRLƏR

**Vüqar ƏLİYEV**
Bakı Dövlət Universiteti
ORCID:0000-0001-7064-992X
e-mail: oghuz78@gmail.com

**Xülasə**

Məqalədə müasir beynəlxalq münasibətlər sistemində medianın strateji roluna və dünya mediasında qərəzli informasiya siyasətinin formalaşma səbəblərinə siyasi-analitik kontekstdə nəzər salınır. İnformasiya müasir dövrdə yalnız kommunikasiya vasitəsi deyil, həm də güc, təsir və manipulyasiya aləti kimi çıxış edir. Qlobal media məkanında geosiyasi maraqlar, iqtisadi asılılıqlar, media sahibliyinin konsentrasiyası, mədəni stereotiplər və informasiya müharibələri qərəzli yanaşmaların əsas determinantları kimi təhlil olunur. Məqalədə media diskursunun beynəlxalq münaqişələrə, ictimai rəyin formalaşmasına və siyasi qərarvermə proseslərinə təsiri araşdırılır. Xüsusilə Azərbaycanla bağlı beynəlxalq mediada müşahidə olunan selektiv və birtərəfli yanaşmalar konkret nümunə kimi dəyərləndirilir. Nəticə etibarilə, balanslı və obyektiv informasiya mühitinin formalaşdırılmasının beynəlxalq təhlükəsizlik, davamlı sülh və ədalətli qlobal nizam üçün strateji əhəmiyyət daşıdığı vurğulanır.

**Açar sözlər:** qərəzli informasiya siyasəti, dünya mediası, geosiyasət, informasiya müharibəsi, media diskursu, Azərbaycan.

## BIASED INFORMATION POLICY IN THE WORLD MEDIA: CAUSES AND EFFECTS

**Vugar ALIYEV**
Baku State University
ORCID:0000-0001-7064-992X
e-mail: oghuz78@gmail.com

**Abstract**

This article examines the strategic role of media in the contemporary international system and analyzes the underlying causes of biased information policies in global media from a political-analytical perspective. In the modern era, information

functions not only as a means of communication but also as an instrument of power, influence, and manipulation. The study identifies geopolitical interests, economic dependencies, media ownership concentration, cultural stereotypes, and information warfare as the main determinants shaping biased media narratives. It explores how media discourse influences international conflicts, public opinion formation, and political decision-making processes. Particular attention is paid to biased representations of Azerbaijan in international media as a case study illustrating selective and unbalanced information practices. The article concludes that establishing a balanced and objective global information environment is a strategic necessity for international security, sustainable peace, and a fair global order.

**Keywords:** biased information policy, global media, geopolitics, information warfare, media discourse, Azerbaijan.

## ПРЕДВЗЯТАЯ ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА В МИРОВЫХ СМИ: ПРИЧИНЫ И ПОСЛЕДСТВИЯ

**Вугар АЛИЕВ**
Бакинский Государственный Университет
ORCID:0000-0001-7064-992X
e-mail: oghuz78@gmail.com

**Аннотация**

В статье рассматривается стратегическая роль средств массовой информации в современной системе международных отношений и анализируются причины формирования предвзятой информационной политики в мировых медиа с политико-аналитической точки зрения. В условиях глобализации информация выступает не только как средство коммуникации, но и как инструмент власти, влияния и манипуляции. В качестве ключевых факторов предвзятости выделяются геополитические интересы, экономическая зависимость, концентрация медиа-собственности, культурные стереотипы и информационные войны. Анализируется влияние медиадискурса на международные конфликты, формирование общественного мнения и процессы политического принятия решений. Особое внимание уделяется предвзятому освещению Азербайджана в международных СМИ как наглядному примеру селективного информационного подхода. Делается вывод о том, что формирование сбалансированной и объективной глобальной информационной среды является стратегическим условием международной безопасности, устойчивого мира и справедливого мирового порядка.

**Ключевые слова:** предвзятая информационная политика, мировые СМИ, геополитика, информационная война, медиадискурс, Азербайджан.

## Giriş

Müasir dövrdə informasiya güc, təsir və manipulyasiya vasitəsi kimi strateji əhəmiyyət daşıyır. Media qurumları cəmiyyətlərdə yalnız məlumat paylaşan platformalar deyil, həm də ictimai rəyin formalaşmasında mühüm rol oynayan təsir mexanizmləridir. Buna baxmayaraq, dünya mediasında bəzi hallarda qərəzli və birtərəfli yanaşma müşahidə olunur ki, bu da həqiqətlərin təhrif edilməsinə, stereotiplərin güclənməsinə və konfliktlərin dərinləşməsinə səbəb olur.

İnformasiyanın sürətlə yayıldığı rəqəmsal əsrdə bu təsir daha da dərinləşməkdədir. Sosial şəbəkələr, onlayn xəbər portalları və rəqəmsal platformalar vasitəsilə yayılan məlumatlar saniyələr içində qlobal auditoriyaya çatır və ilkin təəssüratların formalaşmasında həlledici rol oynayır. Bu isə informasiyanın doğruluğunun yoxlanılması prosesini çətinləşdirir və manipulyasiya imkanlarını artırır.

Müasir informasiya cəmiyyətində media artıq yalnız hadisələri əks etdirən vasitə deyil, həm də reallığın necə qavranıldığını müəyyən edən əsas aktorlardan biridir. Xəbərlərin seçimi, təqdimat forması və istifadə olunan dil ictimai şüurda müəyyən təsəvvürlərin formalaşmasına səbəb olur. Bu baxımdan qərəzli informasiya siyasəti yalnız etik problem deyil, eyni zamanda siyasi və sosial təhlükə mənbəyidir. Məsələn, müəyyən hadisənin yalnız zorakılıq və qarşıdurma aspektindən işıqlandırılması həmin region haqqında davamlı olaraq təhlükə imici yarada bilər. Halbuki eyni məkanda sosial inkişaf, iqtisadi tərəqqi və mədəni müxtəliflik kimi müsbət proseslər də paralel şəkildə mövcuddur. Seçmə təqdimat reallığın fragmentləşdirilmiş modelini yaradır və auditoriyanı birtərəfli düşünməyə istiqamətləndirir.

Qərəzli informasiya siyasətinin arxasında duran səbəblər çoxşaxəlidir və müxtəlif faktorlarla izah olunur: siyasi və iqtisadi maraqlar, mədəniyyətlərarası fərqliliklər, informasiya müharibələri və media qurumlarının maliyyə strukturundakı problemlər. Bu cür yanaşmalar xüsusilə beynəlxalq məsələlərdə – münaqişələr, enerji siyasəti, insan haqları kimi mövzularda daha çox nəzərə çarpır. Beynəlxalq enerji layihələri, nəqliyyat dəhlizləri və geostrateji təşəbbüslər ətrafında gedən informasiya mübarizəsi bunu açıq şəkildə nümayiş etdirir. Enerji təhlükəsizliyi və resursların bölüşdürülməsi kimi məsələlərdə media diskursu çox zaman iqtisadi maraqların informasiya müstəvisində davamı kimi çıxış edir. Bu mövzuların həssas xarakter daşıması isə media diskursunu daha da mürəkkəbləşdirir. Çünki bu sahələrdə verilən hər bir informasiya təkcə ictimai rəyə

deyil, eyni zamanda siyasi qərarvermə proseslərinə də təsir göstərir. Beləliklə, media yalnız müşahidəçi deyil, birbaşa proseslərin iştirakçısına çevrilir.

Bəzi hallarda media tərəfindən yaradılan ictimai təzyiq hökumətlərin xarici siyasət kursuna düzəliş etməsinə və ya müəyyən mövqedən geri çəkilməsinə səbəb olur. Bu isə informasiyanın artıq "dördüncü hakimiyyət" çərçivəsini aşaraq strateji qərarların formalaşmasında aktiv alətə çevrildiyini göstərir.

İlk növbədə geosiyasi maraqlar bu səbəblərin başında gələn ən vacib məqamdır. Güclü dövlətlərin və beynəlxalq aktorların öz maraqlarını qorumaq üçün media üzərindən təsir göstərməsi günümüzün reallığıdır. Münaqişəli bölgələrdə tərəflərin müəyyən dövlətlərə və ya təşkilatlara yaxın olmasına görə qərəzli mövqelər nümayiş etdirilməsinin də mütəmadi şəkildə şahidi olmaqdayıq. Geosiyasi rəqabət şəraitində informasiya bir növ "yumşaq güc" alətinə çevrilir. Dövlətlər öz mövqelərini legitimləşdirmək və qarşı tərəfi delegitimləşdirmək üçün media platformalarından istifadə edirlər. Bu isə bəzən hadisələrin mahiyyətindən uzaq, siyasi məqsədlərə xidmət edən narrativlərin formalaşmasına gətirib çıxarır. "Yumşaq güc" strategiyasında media vasitəsilə mədəniyyət, dəyərlər və siyasi modelin cazibədar formada təqdim edilməsi əsas yer tutur. Lakin bu cazibədarlıq çox zaman alternativ mövqelərin gözdən salınması və ya qeyri-legitim kimi təqdim olunması ilə müşayiət edilir. Nəticədə informasiya məkanı rəqabətli ideoloji müstəviyə çevrilir.

İkinci səbəb maliyyə və sahiblik faktorları ilə bağlıdır. Nəzərə almalıyıq ki, media qurumlarının əksəriyyəti böyük korporasiyalar və ya siyasi qruplar tərəfindən maliyyələşdirilir, nəticədə onların siyasi və iqtisadi maraqlarına uyğun təbliğatın təşkil edilməsi əsas məqam kimi ortaya çıxır. Bu isə olduqca önəmli faktordur. Qlobal informasiya məkanında aparıcı media korporasiyaların təsiri və informasiya axınına müdaxilələri, məhz həmin quruluşların müəyyən mövzulara aid üstünlük verdiyi narrativlərin hakim olmasına səbəb olur. Media mülkiyyətinin konsentrasiyası plüralizmin zəifləməsinə və alternativ baxışların kölgədə qalmasına gətirib çıxarır. Nəticədə ictimaiyyət yalnız müəyyən maraq qruplarının prizmasından süzülmüş informasiyanı qəbul etməyə məcbur qalır. Reklam bazarından asılılıq da redaksiya siyasətinə birbaşa təsir göstərir. Böyük reklamverənlərin maraqlarına toxunan araşdırmaların məhdudlaşdırılması və ya ümumiyyətlə işıqlandırılmaması halları media müstəqilliyinin nisbi xarakter daşıdığını sübut edir. Bu isə ictimai nəzarət funksiyasının zəifləməsinə gətirib çıxarır.

Stereotiplər və mədəni yanaşmalar digər vacib səbəb kimi götürülə bilər. Təəssüf ki, xüsusilə Qərbdə bəzi ölkələrə və xalqlara qarşı tarixi və ya mədəni

stereotiplər mövcuddur. Bu şərq xalqlarına və qərb mədəniyyətindən fərqli sivilizasiyaları təmsil edən xalqlara münasibətdə özünü aydın şəkildə göstərir. Eyni zamanda məlumatın kontekstdən çıxarılaraq təqdim olunması və ya müəyyən mədəniyyətlərə uyğunlaşdırılması halları da mövcuddur. Bu tip yanaşmalar "biz və onlar" dixotomiyasını gücləndirir və mədəni fərqlilikləri konflikt prizmasından təqdim edir. Nəticədə xalqlar və dövlətlər haqqında formalaşan təsəvvürlər reallıqdan uzaq, bəzən isə açıq-aşkar diskriminativ xarakter daşıyır.

Post-kolonial diskurs çərçivəsində aparılan araşdırmalar göstərir ki, informasiya istehsalı prosesində mərkəz-periferiya münasibətləri hələ də öz təsirini saxlayır. İnkişaf etməkdə olan ölkələr çox zaman "problemlər zonası", "risk məkanı" kimi təsvir olunur, halbuki həmin cəmiyyətlərin daxili dinamikası və inkişaf potensialı kifayət qədər obyektiv şəkildə təqdim edilmir.

Dördüncü səbəb kimi informasiya müharibəsini qeyd edə bilərik. Birmənalıdır ki, bəzi ölkələr və təşkilatlar rəqiblərinə qarşı media vasitəsilə informasiya müharibəsi aparırlar. Bu dezinformasiya və manipulyasiyalarla müşayiət olunur. İnformasiya müharibəsi artıq klassik müharibələrin ayrılmaz komponentidir. Bəzən güllə və tanklardan daha təsirli olan xəbər başlıqları və vizual materiallar ictimai şüuru istiqamətləndirir, hətta siyasi rejimlərin legitimliyini dəyişə bilir. Dünya mediasında qərəzli informasiya siyasəti qlobal arenada həqiqətlərin təhrif edilməsinə və ictimai rəyin manipulyasiyasına yol açır. Bu siyasətin arxasında duran səbəblər – geosiyasi maraqlar, iqtisadi təsirlər, mədəni stereotiplər və informasiya müharibələri – yalnız bir dövlət və ya qurumun təsir sferasından kənarda deyil, daha geniş miqyasda, qlobal güc balanslarının bir hissəsi kimi özünü göstərir. Kiberməkanda fəaliyyət göstərən bot şəbəkələri, saxta hesablar və koordinasiyalı informasiya kampaniyaları ictimai rəyin süni şəkildə yönləndirilməsinə xidmət edir. Bu isə ənənəvi jurnalistikanın etibarlılığına zərbə vurmaqla yanaşı, cəmiyyətlərdə informasiya xaosu yaradır.

Bu mənzərə göstərir ki, informasiya siyasəti artıq beynəlxalq münasibətlərin əsas cəbhələrindən biridir. Bu cəbhədə məğlub olan tərəf yalnız imic deyil, həm də siyasi və iqtisadi mövqelərini itirə bilər. İnformasiya məkanında uğur qazanan aktorlar isə öz mövqelərini legitimləşdirmək, tərəfdaşlıq şəbəkələrini genişləndirmək və beynəlxalq institutlarda daha əlverişli qərarların qəbuluna nail olmaq imkanına sahib olurlar.

Azərbaycana dair beynəlxalq mediada nümayiş olunan qərəzli yanaşmalar bu problemlərin konkret nümunəsidir. Ölkənin coğrafi mövqeyi, enerji resursları və strateji maraqları bəzi hallarda obyektiv informasiya axınının qarşısını alır. Bu isə ölkənin imicinə və beynəlxalq münasibətlərinə mənfi təsir gös-

tərir. Xüsusilə regional münaqişələr kontekstində Azərbaycanla bağlı informasiya axınının balanssız təqdim edilməsi, bəzi hallarda tarixi faktların təhrif olunması və ya kontekstdən çıxarılması beynəlxalq ictimai rəyin yanlış formalaşmasına səbəb olur.

Bununla belə, qərəzli informasiya siyasəti ilə mübarizə yalnız dövlətlər və təşkilatlar üçün deyil, həm də cəmiyyətlər üçün bir çağırışdır. Daha obyektiv və müstəqil media quruluşunun təşviq edilməsi, media savadlılığının artırılması və məlumat mənbələrinin müxtəlifliyinin təmin edilməsi bu problemin həllində mühüm addımlar ola bilər. Eyni zamanda, qlobal informasiya mühitində balanslı və ədalətli yanaşma təmin edilmədən davamlı sülh və tərəqqi mümkün görünmür.

Beynəlxalq jurnalistika standartlarının gücləndirilməsi, fakt-yoxlama mexanizmlərinin inkişafı və transmilli media əməkdaşlığının təşviqi də bu istiqamətdə vacib rol oynaya bilər. Şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqi media etimadının bərpasına xidmət edər.

Media savadlılığı yalnız jurnalistlər üçün deyil, adi vətəndaşlar üçün də vacib bacarıqdır. Cəmiyyət informasiyanı tənqidi düşüncə prizmasından qiymətləndirmədikcə manipulyasiya mexanizmləri effektivliyini qoruyub saxlayacaq. Təhsil proqramlarında media və informasiya savadlılığına xüsusi yer ayrılması, gənc nəslin analitik düşüncə bacarıqlarının inkişafı uzunmüddətli perspektivdə informasiya təhlükəsizliyinin əsas dayaqlarından birinə çevrilə bilər.

Bu kontekstdə Azərbaycan kimi ölkələr həm öz milli maraqlarını qorumaq, həm də beynəlxalq ictimaiyyətə daha obyektiv informasiya təqdim etmək üçün fəal informasiya strategiyaları hazırlamalıdır. Bu strategiyalar yalnız müdafiə xarakterli deyil, həm də təşəbbüskar və proaktiv olmalıdır. Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə birbaşa və vasitəsiz çatdıran platformaların gücləndirilməsi uzunmüddətli perspektivdə ölkənin informasiya təhlükəsizliyinin əsas təminatlarından birinə çevrilə bilər.

Eyni zamanda, rəqəmsal diplomatiya alətlərindən istifadə, beynəlxalq media ilə birbaşa əməkdaşlıq mexanizmlərinin qurulması və milli kontentin xarici dillərdə keyfiyyətli şəkildə istehsalı informasiya siyasətinin effektivliyini artırır. Bu yanaşma yalnız müdafiə deyil, həm də qlobal informasiya məkanında fəal iştirak strategiyası kimi çıxış edə bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Nye, J. S. (2004). *Soft Power: The Means to Success in World Politics*. New York: PublicAffairs.
2. Chomsky, N., & Herman, E. S. (2002). *Manufacturing Consent: The Political Economy of the Mass Media*. New York: Pantheon Books.
3. McCombs, M. (2014). *Setting the Agenda: Mass Media and Public Opinion*. Cambridge: Polity Press.
4. Castells, M. (2009). *Communication Power*. Oxford: Oxford University Press.
5. Pomerantsev, P. (2019). *This Is Not Propaganda: Adventures in the War Against Reality*. London: Faber & Faber.
6. Entman, R. M. (1993). Framing: Toward Clarification of a Fractured Paradigm. *Journal of Communication*, 43(4), 51–58.
7. Hoskins, A., & O'Loughlin, B. (2015). *Arrested War: The Third Phase of Mediatization*. Oxford: Oxford University Press.

# MÜNDƏRİCAT


## MÜASİR MEDİANIN ÇAĞIRIŞLARI

**Qulu MƏHƏRRƏMLİ**
BİRİNCİ TÜRKOLOJİ QURULTAY – 100: ORTAQ ƏDƏBİ DİL MEDİA DİSKURSU KİMİ DÜNƏNDƏN BU GÜNƏ ........3

**Səbinə İZZƏTLİ**
YENİ MEDİA EKOSİSTEMİNDƏ PROBLEMDƏN HƏLLƏ KEÇİD: JURNALİSTİKADA YENİ YANAŞMA........19

## QLOBALLAŞAN DÜNYADA İNFORMASİYA

**Vüqar ƏLİYEV**
DÜNYA MEDİASINDA QƏRƏZLİ İNFORMASİYA SİYASƏTİ: SƏBƏBLƏR VƏ TƏSİRLƏR ........30

**Aynur NƏSİROVA**
VİZUAL SAXTAKARLIQ VƏ XƏBƏRİN MÖTƏBƏRLİYİ PROBLEMİ........37

**Əli HACIYEV**
SOSİAL MEDİA ALTERNATİV XƏBƏR MƏNBƏYİ KİMİ ........48

## KÜTLƏVİ KOMMUNİKASİYA LANDŞAFTI: YENİ TENDENSİYALAR

**Nargiza YUSUPOVA**
MƏTNİN KREOLİZASİYASI "Z" NƏSLİ ÜÇÜN YENİ VİZUAL KOMMUNİKASİYA FORMASI ........59

**Arzu İSAYEVA**
TELEJURNALİSTİKADA DATA ƏSASLI YANAŞMALAR VƏ VİZUAL TƏQDİMAT PROBLEMLƏRİ ........74

**Onur COŞKUN**
SİNEMADA METAMODERN SÖYLEMLERİN HERMENÖTİK OKUMASI: MODERNİZİM VE POSTMODERNİZİMİN DÖNÜŞÜMÜ ("*Don kişot'u öldüren adam*" *filmi əsasında*) ........88

## MÜASİR MEDİANIN PRİORİTET MÖVZULARI

**Anar HƏSƏNOV**
AZƏRBAYCAN MÖVZUSUNUN RUSİYA KİV- də İŞIQLANDIRILMASININ TƏKAMÜLÜ (2000–2024) ....................102

## MİLLİ MƏTBUAT TARİXİNƏ DAİR ARAŞDIRMALAR

**Asif RÜSTƏMLİ**
SOVET REJİMİNİN İLK İLLƏRİNDƏ GİZLİ İSTİQLAL FƏDAİLƏRİNİN FƏALİYYƏTİ....................121

**Aygün ƏZİMOVA**
ÖMƏR FAİQ NEMANZADƏ: MAARİFÇİLİKDƏN İSTİQLALA GEDƏN YOL.....144

## MEDİA SAVADLILIĞI VƏ JURNALİSTİKA TƏHSİLİ

**Nozima MURATOVA, Нигина ТУРГУНОВА**
ÖZBƏKISTAN İNFORMASİYA MƏKANINDA TƏNQİDİ KOMPETENSİYANIN İNKIŞAFINDA MEDİA TƏHSİLİNİN ROLU....................158

**MÜƏLLİFLƏR ÜÇÜN MƏLUMAT VƏ YADDAŞ ....................184**

# СОДЕРЖАНИЕ


## ВЫЗОВЫ СОВРЕМЕННЫХ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ

**Гулу МАГЕРРАМЛИ**
ПЕРВЫЙ ТУРКОЛОГИЧЕСКИЙ СЪЕЗД – 100: ОБЩИЙ ЛИТЕРАТУРНЫЙ ЯЗЫК КАК МЕДИА-ДИСКУРС ОТ ВЧЕРАШНЕГО ДНЯ ДО НАСТОЯЩЕГО....................3

**Сабина ИЗЗАТЛЫ**
СМЕНА ПАРАДИГМЫ ОТ ПРОБЛЕМ К РЕШЕНИЯМ В НОВОЙ МЕДИАЭКОСИСТЕМЕ: НОВЫЙ ПОДХОД В ЖУРНАЛИСТИКЕ....................19

## ИНФОРМАЦИЯ В ГЛОБАЛИЗИРУЮЩЕМСЯ МИРЕ

**Вугар АЛИЕВ**
ПРЕДВЗЯТАЯ ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА В МИРОВЫХ СМИ: ПРИЧИНЫ И ПОСЛЕДСТВИЯ....................30

**Айнур НАСИРОВА**
ВИЗУАЛЬНАЯ ФАЛЬСИФИКАЦИЯ И ПРОБЛЕМА ДОСТОВЕРНОСТЬ НОВОСТНОЙ ИНФОРМАЦИИ....................37

**Али ГАДЖИЕВ**
СОЦИАЛЬНЫЕ МЕДИА КАК АЛЬТЕРНАТИВНЫЙ ИСТОЧНИК НОВОСТЕЙ....................48

## СФЕРА МАССОВЫХ КОММУНИКАЦИЙ: НОВЫЕ ТЕНДЕНЦИИ

**Наргиза ЮСУПОВА**
КРЕОЛИЗАЦИЯ ТЕКСТА КАК НОВЫЙ ВИД ВИЗУАЛЬНОЙ КОММУНИКАЦИИ ПОКОЛЕНИЯ “Z”....................59

**Арзу ИСАЕВА**
ДАТА-ОРИЕНТИРОВАННЫЕ ПОДХОДЫ В ТЕЛЕЖУРНАЛИСТИКЕ И ПРОБЛЕМЫ ВИЗУАЛЬНОЙ ПРЕЗЕНТАЦИИ....................74

**Онур КОШКУН**
ГЕРМЕНЕВТИЧЕСКОЕ ПРОЧТЕНИЕ МЕТАМОДЕРНИСТСКИХ ДИСКУРСОВ В КИНО: ТРАНСФОРМАЦИЯ МОДЕРНИЗМА И ПОСТМОДЕРНИЗМА (ФИЛЬМ «ЧЕЛОВЕК, УБИВШИЙ ДОН КИХОТА») ........ 88

**ПРИОРИТЕТНЫЕ ТЕМЫ СОВРЕМЕННЫХ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ**

**Анар ГАСАНОВ**
ЭВОЛЮЦИЯ ОСВЕЩЕНИЯ ТЕМЫ АЗЕРБАЙДЖАНА В РОССИЙСКИХ СМИ (2000–2024) ........ 102

**ИССЛЕДОВАНИЕ ИСТОРИИ НАЦИОНАЛЬНОЙ ПРЕССЫ**

**Асиф РУСТЕМЛИ**
ДЕЯТЕЛЬНОСТЬ ТАЙНЫХ БОРЦОВ ЗА НЕЗАВИСИМОСТЬ В ПЕРВЫЕ ГОДЫ СОВЕТСКОГО РЕЖИМА ........ 121

**Айгюн АЗИМОВА**
ОМЕР ФАИГ НЕМАНЗАДЕ: ПУТЬ ОТ ПРОСВЕТИТЕЛЬСТВА К НЕЗАВИСИМОСТИ ........ 144

**МЕДИАГРАММАТИКА И ЖУРНАЛИСТИЧЕСКОЕ ОБРАЗОВАНИЕ**

**Нозима МУРАТОВА, Нигина ТУРГУНОВА**
РОЛЬ МЕДИАОБРАЗОВАНИЯ В РАЗВИТИИ КРИТИЧЕСКОЙ КОМПЕТЕНТНОСТИ В ИНФОРМАЦИОННОМ ПРОСТРАНСТВЕ УЗБЕКИСТАНА ........ 158

**ИНФОРМАЦИЯ И ПАМЯТЬ ДЛЯ АВТОРОВ ........ 184**

# CONTENTS


## CHALLENGES OF MODERN MEDIA

**Gulu MAHARRAMLI**
FIRST TURCOLOGY CONGRESS – 100: COMMON LITERARY LANGUAGE AS MEDIA DISCOURSE FROM YESTERDAY TO THE PRESENT........3

**Sabina IZZATLİ**
PARADIGM SHIFT FROM PROBLEMS TO SOLUTIONS IN THE NEW MEDIA ECOSYSTEM: A NEW APPROACH TO JOURNALISM........19

## INFORMATION IN A GLOBALIZING WORLD

**Vugar Aliyev**
BIASED INFORMATION POLICY IN THE WORLD MEDIA: CAUSES AND EFFECTS........30

**Aynur NASIROVA**
VİSUAL FORGERY AND THE PROBLEM OF CREDİBİLİTY OF NEWS........37

**Ali HAJİYEV**
SOCIAL MEDIA AS AN ALTERNATIVE NEWS SOURCE........48

## MASS COMMUNICATION LANDSCAPE: NEW TRENDS

**Nargiza YUSUPOVA**
TEXT CREOLIZATION IS A NEW FORM OF VISUAL COMMUNICATION FOR GENERATION “Z”........59

**Arzu Isayeva**
DATA-DRIVEN APPROACHES IN TELEJOURNALISM AND PROBLEMS OF VISUAL PRESENTATION........74

**Onur COSKUN**
A HERMENEUTIC READING OF METAMODERNISM DISCOURSES IN CINEMA: THE TRANSFORMATION OF MODERNISM AND POSTMODERNISM (THE FILM "THE MAN WHO KILLED DON QUIXOTE")........88

## PRIORITY TOPICS OF MODERN MEDIA

**Anar GASANOV**
EVOLUTION OF AZERBAIJAN'S COVERAGE IN RUSSIAN MEDIA
2000–2024) ........................................................................ 102

## RESEARCH ON THE HISTORY OF THE NATIONAL PRESS

**Asif RUSTAMLI**
ACTIVITIES OF SECRET INDEPENDENCE FIGHTERS IN THE EARLY
YEARS OF THE SOVIET REGIME ........................................................ 121

**Aygun AZIMOVA**
OMER FAIGH NEMANZADE: THE PATH FROM ENLIGHTENMENT
TO INDEPENDENCE ................................................................... 144

## MEDIA LITERACY AND JOURNALISM EDUCATION

**Nozima MURATOVA , Nigina TURGUNOVA**
THE ROLE OF MEDIA EDUCATION IN UZBEKISTAN IN DEVELOPING
CRITICAL COMPETENCE IN THE INFORMATION SPACE ...................................... 158

**INFORMATION AND MEMORY FOR AUTHORS ............................................ 184**

**MEDİA PROBLEMLƏRİ elmi-nəzəri və analitik jurnal**

Rüblük nəşr: 2026 / №1 (2)

**Təsisçi:**

Bakı Dövlət Universiteti

**Redaksiyanın ünvanı:**

Azerbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu Zahid Xəlilov küç.,33
Tel.: (+994) 50-213-25-77

Azerbaycan Respublikasının "Media haqqında" qanununa müvafiq şəkildə təsis edilmişdir

**PROBLEMS OF MEDIA scientific-theoretical and analytical journal**

Quarterly: 2026 / №1 (2)

**Publisher:**

Baku State University

**Editorial title:**

Republic of Azerbaijan, Baku, Yasamal district, Zahid Khalilov str.33
Phone: (+994) 50-213-25-77

Established in accordance with the Law of the Republic of Azerbaijan "On Mass Media"

Çapa imzalanıb: 27.04.2026
Format 70x100 $^{1}/_{16}$. Həcmi: 12,5 ç.v.
Tiraj: 300 nüsxə

BDU Nəşr Evi
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
e-mail:bduneshrevi@bsu.edu.az
**www.bsu.edu.az**

bsu.edu.az
(+994 12) 430 32 45
info@bsu.edu.az
Ünvan: Bakı şəhəri, AZ 1148,
ak.Zahid Xəlilov küç., 33